Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 204** **QƏRAR** **Bakı şəhəri, 25 may 2016-cı il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 sentyabr tarixli 296 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi sularında üzmə Qaydaları"nda dəyişiklik edilməsi barədə

"Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 18 dekabr tarixli 54-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 yanvar tarixli 1730 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 sentyabr tarixli 296 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, N 10, maddə 1211) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi sularında üzmə Qaydaları"nın 2.1.10-cu yarımbəndində "balıq ovlayan" sözləri "balıq və digər su bioresurslarının ovunu həyata keçirən" sözləri ilə əvəz edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***